*Hər sözün altında bir tarix yatır*

***ABBASQULU İSMAYIL OĞLU NƏCƏFZADƏ***
***sənətşünaslıq elmləri doktoru, professor***
***SEVİNC CAVANŞİR QIZI NƏCƏFZADƏ***
***etnomusiqişünas***

# MİKAYIL MÜŞFİQ VƏ AŞIQ SƏNƏTİ



***Azərbaycanda görkəmli şair Mikayıl Müşfiqin (1908–1938) yaraqdıcılığı müxtəlif rakurslardan, istiqamətlərdən yetərincə araşdırılmış, eimi-tədqiqat əsərləri yazılmış, monoqrafiyalar, kitablar hazırlanılmış və nəşr olunmuşdur. Lakin Müşfiq yaradıcılığında musiqi məqamlarına digər sahələrlə müqayisədə çox az diqqət yetirilmişdir. Doğrudur, Müşfiqin şeirlərinə 70-dən artıq mahnı bəstələnmişdir. Bu mahnılar çox sevildiyindən onları, demək olar ki, hər gün müxtəlif telekanallarda və yaxud radio dalğalarnda dinləyirik. Müşfiq poeziyasının bir çox məqamları aşıq mövzusu saz dünyası ilə bağlıdır. Sual yaranır: Aşıq yaradıcılığına olan belə böyük maraq, eşq, sevgi, Müşfiqdə necə yaranmışdı? Bu mövzuya olan qaynaqları şair haradan əldə edirdi? Bütün bunlara o, necə nail olurdu? Bu suallara cavab tapmaq üçün öncə Müşfiqin "nəsil ağacı"nı, yəni şəcərəsini araşdırmaq tələb olunur. Bilindiyi kimi, Müşfiq şair, müəllim, publisist Mirzə Əbdülqadir İsmayılzadənin ("Visaqi" ləqəbli) ailəsində dünyaya göz açmışdır. Tanınmış alim, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Qurbansoy Visaqi haqqında monoqrafiya nəşr etdirmiş və o, "Kamerial təsvir"ə istinadən İsmayılzadələrin şəcərəsini vermişdir. Burada bəlli olur ki, Müşfiqin ulu babası Aşıq Əliqulu Əlioğlu (1752–1816) olmuşdur.***

Bu yerdə"Ot kökü üstə bitər" el məsəli yada düşür. Şübhə yoxdur ki, aşıqvarı məqamlar məhz Aşıq Əliquludan genlər vasitəsilə, qan yaddaşı ilə Müşfiqə ötürülmüşdür. Müşfiq yaradıcılığındakı aşıq





mövzusu bütün bunları deməyə əsas verir. Üstəlik Müşfiqin ana babası olan Aşıq Çıraqəli Xızı aşıq mühitinin formalaşmasında, inkişafında və neçə-neçə aşıqların yetişməsində böyük rolu olmuşdur. Belə bir sazlı-sözlü ocağın nümayəndəsi olan Müşfiq aşıq mövzusuna biganə qala bilməzdi. Müşfiqin nəzmə çəkdiyi "Sındırılan saz" poeması tarixi faktlar əsasında qələmə alınmışdır. Burada biz Dağquşçu kəndindən olan Aşıq Dumanın faciəli həyatı ilə tanış oluruq. Əslində "Aşıq Duman və Sərin xanım" adlı dastanı Müşfiq dövrünün aşıqlarından eşitmiş, sonra bu mövzunu öz şairlik süzgəcindən keçirərək onu tarixi poemaya çevirmişdir. Aşıq Məhəmməd (1927–2009) söyləyirdi ki, mən uşaq vaxtı bu dastanı Xızı aşıqlarının dilindən dəfələrlə eşitmişəm. Burada bir məqama da diqqət yetirək. 1930–40-cı illərdə tanınmış folklorşünas, filologiya elmləri doktoru, professor Məhəmmədhüseyn Təhmasib (1907–1982) Xızıda aşıqlarla görüşərək onların dilindən bir sıra dastanlar toplamışdı. Niyə M.Təhmasib "Aşıq Duman və Sərin xanım" dastanını qələmə almamışdı? Bunun çox sadə cavabı vardır: 1937-ci ildə Müşfiq həbs olunmuşdu, adı bütün dərsliklərdən çıxarılmış, adını çəkmək, hətta dünyaya yeni gəlmiş övladına Müşfiq adını qoymaq vətəndaşlara qadağan, yasaq edilmişdi. Belə bir vəziyyətdə bu dastanı kim qələmə alsaydı, ona ciddi başağrısı olacaqdı. Çünki həmin dastanın mövzusu əsasında artıq Müşfiqin "Sındırılan saz" poemasını yazdığını hər kəs bilirdi. Buna görə folklor nümunələri toplayan dastançılar bu məsələdə ehtiyatlı davranmışlar. "Aşıq Duman və Sərin xanım" dastanını qələmə almağa kimsə cəsarət etməmiş nəticədə bu dastan unudulmuşdur. Dastanın unudulmağının bir səbəbi də onun kiçik çoğrafi ərazidə, yəni yalnız Xızıda yayılmışdı.

Mikayıl Müşfiq "Sındırılan saz" poemasında ulu saz-söz və aşıq sənətilə bağlı yazır:

***Bir də saz əzəl sənətimizdir,***
***Elin ruhu kimi səsi təmizdir.***
***Bunu saz səsinə dalanlar bilər,***
***Aşıqla baş-başa qalanlar bilər.*** ( 13,115)

Müşfiq yaradıcılığından söz açarkən ondan yaşca təxminən 10 il böyük olan bibisi oğlu, Azərbaycan SSR-nin ilk Hərbi Komissarı Əlihüseyn Dağlı (Həmidov Ə.) yada düşür. 6 yaşından atasını itirən

Müşfiq (körpə ikən anası vəfat etmişdi) tam yetim qalır. Aşıq sənətinin, musiqi folklorunun mükəmməl bilicisi olan Ə.Dağlı topladığı folklor nümunələri ilə Müşfiqi tanış edirdi. Hətta Aşıq Əliqulunun sazı da Müşfiqgildə imiş. Bununla bağlı Ə.Dağlı "Ozan Qaravəli" əsərinin II hissəsində – "Xamlıq" adlı məqaləsində yazır: "…Amma mən elimizin tarixində Tufarqanlı Abbası, Xal-xallı Abbası, Göyçəli Ələsgəri, Aşıq Əliqulunu tanıyıb, anlamışam. Hətta, Xızılı Aşıq Əliqulunun xələflərinə (burada İsmayılzadələr – Mirzə Əbdülqadir Visaqi və M.Müşfiq nəzərdə tutulur – A.N., S.N.) yadigar qalan sazını əlimdə oynadıb, simlərilə aşina olmuşam" .(4)

Nadanlar Müşfiqi həbs edərkən əlyazmaları, şəxsi əşyaları ilə yanaşı, XVIII əsrdən, böyük babasından yadigar qalmış sazı da evindən aparmışlar.

Müşfiqin aşıq sənəti ilə məşğul olan babaları Aşıq Əliqulu, Aşıq Çıraqəli və atası Mirzə Əbdülqadir haqqında bilgi veririk.

Aşıq Əliqulu 1752-ci ildə Xızının Sayadlar kəndində Əli kişinin ailəsində doğulmuşdur. Onun nəsil şəcərəsini Çar Rusiyası tərəfindən əhalidən vergi almaqdan ötrü aparılan siyahıyaalmaya – "Kamerial təsvir"ə istinadən Firudin Qurbansoy əsərlərində müəyyənləşdirmişdir. (8,233)



*Aşıq Əliqulu (1752–1816)*
*Aşıq Əliqulunun portreti. Rəssam Minayə Dəyanətqızının işi*

Doğrudur, "Kamerial





təsvir" ilk dəfə tərtib olunanda (1831, daha sonralar 1849, 1874, 1886) Aşıq Əliqulu artıq dünyasını dəyişmişdi. Bu səbəbdən onun adı siyahıya düşə bilməzdi. Siyahıda Əliqulunun oğlu İsmayılın adı isə Sayadlar kəndinin sakini kimi qeydə alınmışdır. Burada müxtəlif illərdə yaşamış bir neçə Əliqulunun adı çəkilir. Bilindiyi kimi, Azərbaycan türkləri dünyaya yeni gəlmiş körpəyə rəhmətə gedən əzizlərinin adlarını qoyurlar. Bir ehtimala görə, bu tayfa təxminən XVI–XVII əsrlərdə Sayadlarda yaşamış Əliqulu xanın nəslindəndir. Aşıq Əliqulu da öz babasının adını yaşatmış, ondan sonra dünyaya gələn övladları da eyni adı daşımışlar: nəvə Əliqulu (1827), nəticə Əliqulu (1858) və kötükcə Əliqulu və s.

Əliqulu kiçik yaşlarından şeirə, musiqiyə böyük həvəs göstərmişdir. Əliqulunu aşıq sənətinə də elə bu sevgi bağlamışdır. Bilindiyi kimi, aşıq sənətinin həm poetik, həm də musiqi tərəfləri vardır. Bu baxımdan Əliqulu hələ yeniyetmə yaşlarından peşə kimi özünə aşıq sənətini seçmişdir. Onun doğulduğu Sayadlar kəndinin adının etimoloji açıqlamasını mütəxəssislər "sayılıb-seçilən oğuzlar yurdu" olduğunu bildirirlər. Aşıq Əliqulunun oğlu İsmayıl Xızıda ensiklopedik biliyə malik tanınmış ziyalılardan biri olmuşdur. Onun oğlu Molla İsmayıl isə görkəmli şair Mikayıl Müşfiqin babası, Mirzə Əbdülqadir Visaqinin (1865–1914) atasıdır. Elə bundan sonra haqqında danışdığımız nəslin İsmayılzadə soyadı da Molla İsmayılın adı ilə əlaqədar yaranmışdır. Bəzən yanlış olaraq bədxahlar tərəfindən bu nəslin guya tat-fars mənşəli olduğu haqqında məlumat yayılır. Əslində Müşfiqgilin nəsli oğuz türkləridir. Bu nəslin kişi nümayəndələri bəzən qədim zamanlardan bu günə qədər ad və soyadlarında təmiz türk dilində olan "qul" sözünü yaşadırlar (Əliqulu, Cəfərqulu, Abbasqulu və b.). Farslarda isə bir nəfərin də olsun adında "qul" sözünə rast gəlmək mümkün deyil.

Aşıq Əliqulunun adına və bir neçə şeirinə M.Müşfiqin bibisi oğlu Əlihüseyn Dağlının (1898–1981), tanınmış alim Firudin Qurbansoyun əsərlərində, "Aşıq ədəbiyyatı antologiyası" kitabında və həmçinin bu sətirlərin müəllifləri – Azərbaycan Milli Konservatoriyasının məzunu Sevinc Nəcəfzadənin və onun elmi rəhbəri, sənətşünaslıq elmləri doktoru, professor Abbasqulu Nəcəfzadənin tədqiqatlarında rast gəlirik . (11, 12)Lakin Əliqulunun şeirləri yazılı şəkildə deyil, aşıq yaradıcılığına məxsus şəkildə dildən-dilə, ağızdan-ağıza ötürülərək



Azərbaycan Milli

dövrümüzə qədər gəlib çıxmışdır. Müşfiq ocağının bir nümayəndəsi, müasirimiz şair Vahab İsmayılzadənin dediyinə görə, Aşıq Əliqulunun, Visaqinin, Yunus Dağlının bir sıra əlyazmaları el şairi rəhmətlik Bəylər Bərməki tərəfindən toplanmış, o dünyasını dəyişdikdən sonra həmin yazılar itib-batmışdır.

Əminliklə demək olar ki, Xızıda aşıq sənəti öz inkişaf zirvəsinə məhz XVIII əsrdə Aşıq Əliqulunun timsalında yüksəlmişdir. Aşıq Əliqulu nəinki Xızıda, Şirvanda, bütün Azərbaycanda sevilib, onun fəaliyyət dairəsi böyük bir coğrafi ərazini əhatə etmişdir.

Aşıq Valeh (Kərbəlayi Səfi Məhəmmədoğlu, 1729–1822) "Cahannamə" adlı şeirində yazırdı:

***Bu dünyada heç də gəzməmişəm kəm,***
***Aşıq Əlioğlu, Aşıq Məhərrəm.***
***Həsrətin çəkirdi Rum, həm də Əcəm,***
***Əlində tütəyi-balaban hanı? (2,43)***

Abbasqulu Nəcəfzadənin bildirdiyinə görə, şeirdə Aşıq Əlioğlu adı yanlış yazılmışdır. Bu, bir texniki səhv də ola bilər. Əvvəla, heç bir mənbədə belə bir aşığın adına rast gəlmirik. İkincisi, Əlioğlu kimi təqdim olunan aşığın məgər öz adı yoxdur ki, Əlioğlu şəklində verilmişdir?! Deməli, nə isə anlaşılmazlıq, uyğunsuzluq yaranır. Fikrimizcə, burada söhbət, Mikayıl Müşfiqin ulu babası, dövrünün tanınmış sənətkarı Aşıq Əliquludan gedir. Olsun ki, Aşıq Valeh şeirində Aşıq Əliqulunun atasının adını işlədərək Əlioğlu yazmışdır. Aralarındakı yaş fərqinə baxmayaraq, Aşıq Valeh Aşıq Əliqulu ilə ömrünün sonuna kimi dostluq etmiş, toy məclislərində (həm Qarabağda, həm də Bakı kəndlərində və Xızıda) birgə iştirak etmişlər. Aşıq Əliqulu, eləcə də şeirdə adıçəkilən Aşıq Məhərrəm balabanın müşayiəti ilə saz çalıb, söz söyləməyi xoşlayardılar. Bilindiyi kimi, ifa zamanı Şirvan aşıqlarının yanında mütləq balabançısı da olmalıydı. Şeirdə məhz bu məqamlara işarə edilir. Xatırladaq ki, Aşıq Valeh haqqında söz açdığımız "Cahannamə" şeirini yaşının ahıl vaxtlarında, XVIII əsrin sonlarında yazmışdır.

Aşıq Ə ulu "Olmaz" adlı şeirində yazır:

***Dərdə uyub zarıma,***
***Ağlayanda hey olmaz.***





***Əzərsən, qəndi çıxar,***
***Neyşəkərdən ney olmaz.***

Bu misralardan ("Neyşəkərdən ney olmaz") bəlli olur ki, Aşıq Əliqulu ney çalğı alətinin hazırlanma texnologiyasını mükəmməl bilirmiş. Ulularımız "ney" və ya "nay" dedikdə qamışın şəkərsiz növünü nəzərdə tutumuş, bu sözü "oxuyan qamış" anlamında işlətmişlər. Hər qamışdan ney hazırlanmır, bununla bağlı Məhəmməd Füzuli də şeirlərinin birində yazmışdır:

***O kəs ki, lovğadır, onda hünərdən olmaz əsər,***
***Səda çıxarmı o neydən ki, var onun şəkəri? ( 7, 159)***

Aşıq Əliqulu daim "düzü düz, əyrini əyri" demişdir. O, "Düşər" adlı şeirində demişdir:

***Qol deyil, boynuma ipdi dolanan,***
***Gündə gəlib keçir ömür yalannan,***
***Deməzsə Əliqulu ancaq olandan,***
***Sinəsindən sazı, ya sözü düşər.***

"Deməzsə Əliqulu ancaq olandan" misrasından bəlli olur ki, aşıq yalnız gördüyünü, baş verən olaylardan yazmış, haqqı və ədaləti müdafiə etmişdir. O, bir əlində saz, bir əlində qılınc olmaqla əqidəli, dinli-imanlı aşıqlarımızdan biri olmuşdur:

***Şəriət yolundan dönməyim olmaz,***
***Xilafi-şər söz çıxmayıb dilimdən.***
***Namaz qılar, oruc tutar, zikr edər,***
***Saz sinəmdən, xəncər düşməz əlimdən (9, 13)***

Aşıq Əliqulunun şeirlərindən bəlli olur ki, o, Xızı mədrəsəsində mükəmməl təhsil almış, həmçinin daim mütaliə etmiş, bu yolla öz savadını dərinləşdirmişdir.

Aşıq Əliqulu 1816-cı il yanvarın 3-də doğulduğu Sayadlar kəndində dünyasını dəyişmiş və orada da dəfn olumuşdur.

## Aşıq Çıraqəli (1798–1896)

Aşıq Çıraqəli – Mikayıl Müşfiqin atası Əbdülqadir İsmayılzadənin ana babası olmuşdur. Çıraqəli 1798-ci ildə Xızının Şıxlar kəndində ziyalı bir ailədə – Molla Cabbarın ocağında dünyaya göz açmışdır. Şıxlar elə bir kənddir ki, burada şairə, söz sənətinə, yaradıcı insana bütün əsrlərdə böyük qiymət, dəyər verilmişdir. F.Qurbansoy bu kənddəki fəaliyyət göstərən xəlvətiyyə cərəyanı barədə yazır: "Xızının Şıxlar (Şeyxlər) kəndində XIV yüzildən bəri fəaliyyət göstərən xəlvətiyyə irfan yolunu izləyib, ürəyə xoş gələn şeirlər qoşaraq onları məclislərdə ifa edib" (9,13)

Aşıq Çıraqəli ömrünün son illərində yazdığı "Gəlir" adlı bir şeirində deyir:

***Böyük kişilərin elmini aldım,***
***Munislər seyrəldi, təkə tək qaldım,***
***Allaha əyildim, bir boy ucaldım,***
***Sığınsaq, Tanrıdan hey aman gəlir.***

Burada "Böyük kişilərin elmini aldım" misrasından bəlli olur ki, o, Xızı mədrəsəsində dövrünün ziyalılarından mükəmməl təhsil almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Bu səbəbdən aşığın zəngin söz ehtiyatı yaranmışdır ki, bu da ona bədahətən deyilən deyişmələr zamanı çox gərəkli olmuşdur.

Dövrünün bir sıra aşıqları ilə yanaşı, Aşıq Çıraqəlinin də Xızı aşıq mühitinin formalaşmasında, yeni aşıqların yetişməsində (Aşıq Duman, Aşıq İmanbaxış və b.) böyük xidmət göstərmişdir. Xızının Xirək kəndindən olan Aşıq İmanbaxışın ustad Aşıq Çıraqəli ilə görüşü və onun gənc aşığa xeyir-dua verməsi haqqında xatirələri bu gün də el arasında danışılır. Aşıq Çıraqəli sayılıb-seçilən saz-söz sənətkarı kimi nəinki Xızıda, Azərbaycanın digər bölgələrində də sevilmişdir.

Uzun ömür sürən Aşıq Çıraqəli 98 yaşında haqq dünyasına qovuşmuş, doğulduğu Şıxlar kəndində dəfn olunmuşdur. Aşıq Çıraqəlinin şeirlərinə "Aşıq ədəbiyyatı antologiyası"nda, Firudin Qurbanso n və Sevinc Nəcəfzadənin tədqiqatlarında rast gəlirik( 1,9,12)

Müşfi atası Mirzə Əbdülqadir aşıq olmasa da tanınmış şair,





müəllim idi. O, şeirlərini əsasən Visaqi, bəzən isə Nai və Qubad təxəllüsləri ilə də yazmışdır. Mirzə Əbdülqadir Visaqi "Əli xan" (natamam), "Yusif və Züleyxa" (natamam), "Seyfəlmülk" və "Şah İsmayıl" operalarının librettosunun müəllifidir( 6,204)



*Mirzə Əbdülqadir İsmayıl oğlu İsmayılzadə (1865–1914)*

"Seyfəl-Mülk" operasını Məşədi Cəmil Əmiraslan oğlu Əmirov (1875–1928) bəstələmiş və opera 1915-ci ildə tamaşaya qoyulmuşdur. Məşədi Cəmil dünyaşöhrətli bəstəkar Fikrət Əmirovun (1922–1984) atasıdır.

"Şah İsmayıl" operasını isə Müslüm (Əbdülmüslüm) Məhəmməd oğlu Maqo-mayev (1885–1937) bəstələmişdir. Operanın ilk tamaşası 1915-ci ildə olmuşdur. Əlihüseyn Dağlı "Ozan Qaravəli" əsərinin III hissəsində "Oyun çıxartmaq" məqaləsində yazır: "Şah İsmayıl" operası hələ yazılan dövürdə Mirzə Əbdülqadir Visaqi ilə Müslüm bəy Maqomayev vaxtlarının xeyli hissəsini birgə keçirər, operanın tərtibatını müzakirə edərdilər. Visaqi operadakı nəzmlərin hamısını öz gözəl səsi ilə, şəst və şövqlə oxuyarmış. Müslüm bəy Maqomayev isə onun avazını qeydə alıb, sonradan, necə deyərlər, özündən ke-çirərək partituraya salırdı" .(5)

M.Müşfiqin yaradıcılığında aşıq sənəti ilə bağlı xeyli məqamlar vardır. Biz Müşfiqin "Sındırılan saz" poeması haqqında geniş məlumat vermişik. Müşfiq "Yeddi aşıq" və "Çoban" poemalarında da sazdan, aşıq sənətindən bəhs edir. Onun şeirlərində saz alətinin adına daha tez-tez rast gəlirik. O, "Qonaq", "Göy-göl", "Əbədiyyat nəğməsi", "Qafqaz" və başqa şeirlərində saz alətini vəsf etmişdir.

Əlbəttə kiçik bir məqalədə Mikayıl Müşfiqin yaradıcılığındakı saz, söz, aşıq sənətini istənilən şəkildə, geniş və əhatəli təqdim etmək mümkün deyil. Hər halda bu məqalədə Mikayıl Müşfiqin şair-aşıq babaları, onların "içdiyi şeir bulağı" haqqında bilgi verməyə çalışdıq. Müşfiqin də şair kimi formalaşmasında, aşıq yaradıcılığına dəfələrlə müraciət etməsinin ona genlərlə babaları tərəfindən gəldiyini

düşünürük.

## ƏDƏBİYYAT

1. Aşıq ədəbiyyatı antologiyası. Üç cilddə, I c., "Aşıq poeziyası". B.: XalqBank, 2017, 592 s.
2. Aşıq Valeh. Alçaqlı, ucalı dağlar. Tərtibçilər: Mehdi Famil və Xaspolad Mirzəyev. B.: Gənclik, 1970, 95 s.
3. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi. Kamerial təsvir, 1831
4. Dağlı Ə. (Həmidov Ə.H.). Ozan Qaravəli. II hissə. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun fondu. C-1021/9974 şifrəli əlyazması
5. Dağlı Ə. (Həmidov Ə.H.). Ozan Qaravəli. Beşhissəli əlyazma, III hissə. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun fondu, C-1016 – 9969 qovluğunda C-1175/38009 şifrəli əlyazması.
6. Müznib Ə.M. (Vüsaqi ilə bağlı tərcümeyi-hal və nekroloq – A.N.). // "Dirilik" dərgisi №13, 16 mart 1915
7. Füzuli M. Əsərləri. Altı cilddə, IV c. B.: Şərq-Qərb, 2005, 344 s.
8. Qurbansoy F.Ə. Göylərin laciverd ətəklərində. B.: Qərənfil MMC, 2008, 240 s.
9. Qurbansoy F.Ə. Mirzə Əbdülqadir Visaqi (özü və sözü). B.: CBS Polygraphic Production, 2018, 144 s.
10. Nəcəfzadə A.İ. İki mahnı (notoqrafiya). B.: MBM, 2008, 16 s.
11. Nəcəfzadə A.İ. Müşfiqin duyğu yarpaqları. B.: Təhsil, 2009, 128 s.
12. Nəcəfzadə S.C. Xızının aşıq mühitində dastan yaradıcılığı. "Etnomusiqişünaslıq" ixtisası üzrə magistr dərəcəsi almaq üçün təqdim olunan dissertasiya işi. B.: AMK-nın kitabxanası, 2019, 81 s.
13. Müşfiq M. Seçilmiş əsərləri. B.: XalqBank, 2013, 596 s.

## SUMMARY
## Mikayil Mushvig and Ashug Art

Mikayil Mushvig's creative-activity is always analyzed from different point of views, according to various studies, a lot of books and





papers have been written about it. However, the role of music in the great poet's creativity is not analyzed too much. In the presented paper the role of art, music, specially ashug art is investigated, several facts and comparisons are presented by the author.

## QAYNAQLAR

Müşfiq M. Seçilmiş əsərləri. B.: XalqBank, 2013, s. 115

Dağlı Ə. (Həmidov Ə.H.). Ozan Qaravəli. II hissə. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun fondu. C-1021/9974 şifrəli əlyazması; Qurbansoy F.Ə. Göylərin laciverd ətəklərində. B.: Qərənfil MMC, 2008, s. 159–160; Aşıq ədəbiyyatı antologiyası. Üç cilddə, I c., "Aşıq poeziyası". B.: XalqBank, 2017, s. 288-289; Qurbansoy F.Ə. Mirzə Əbdülqadir Visaqi (özü və sözü). B.: 2018, s. 13–16; Nəcəfzadə S.C. Xızının aşıq mühitində dastan yaradıcılığı. "Etnomusiqişünaslıq" ixtisası üzrə magistr dərəcəsi almaq üçün təqdim olunan dissertasiya işi. B.: AMK-nın kitabxanası, 2019, s. 44–49

Aşıq Valeh. Alçaqlı, ucalı dağlar. Tərtibçilər: Mehdi Famil və Xaspolad Mirzəyev. B.: Gənclik, 1970, s. 43

